AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2023, № 2 (276), 116-123
doi.org/10.48445/x9797-8803-8990-q

ƏDƏBİ MÜHİT

# Əhməd Cavad yaradıcılığında milli tərbiyə nümunəsinin yeri və rolu

***Kamal Camalov***
Pedaqogika elmləri doktoru, dosent. Naxçıvan Müəllimlər İnstitutu. Azərbaycan.
E-mail: kamal.camalov@gmail.com
https://orcid.org/0000-0003-1977-7250

**XÜLASƏ**
Məqalədə xalq maarifi carçısı sayılan Əhməd Cavad yaradıcılığındakı maarifçilik ideyaları tədqiq-təhlil obyektinə cəlb edilmişdir. Qeyd edilir ki, şairin azərbaycançılıq ruhu onun vətənpərvərlik məzmunlu şeirlər yazmasına səbəb olmuşdur. Əhməd Cavad xalqı vətənin istiqlalı uğrunda mübarizəyə çağırmaq üçün bir çox demokratik mətbuat səhifələrində çıxış edərək, əsərlərində gəldiyi qənaətləri doğru şəkildə ifadə etməyi bacarmışdır. Azərbaycan xalqının milli və dini təəssübkeşi Əhməd Cavad öz yaradıcılıq dəsti-xətti ilə gənclərin, o cümlədən yeniyetmələrin milli ruhda tərbiyə edilməsinin əhəmiyyətini dəqiqləşdirmiş, vətənpərvərlik, milli mənlik şüuru, milli ləyaqət, xalqın dilinə, dininə, adət-ənənələrinə, ədəbiyyatına, tarixinə hörmətlə yanaşmağı, onu qoruyub saxlamaq və inkişaf etdirməyi əxlaqi-mənəvi keyfiyyət hesab etmişdir. İnsaniyyətə, insanpərvərliyə xidmət edən şair parlaq boyalarla tərənnüm etdiyi əməkçi insan obrazında insanların bir-birini qardaş kimi sevməyinin şərəfli bir iş olduğunu qeyd etmişdir.

**AÇAR SÖZLƏR**
xalq maarifi carçısı sayılan Əhməd Cavad, maarifçilik, vətən və vətənpərvərlik, milli mənlik şüuru, milli oyanış

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 09.04.2023
qəbul edilib: 20.05.2023

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2023, NO. 2, VOL. 276, 116-123
doi.org/10.48445/x9797-8803-8990-q

LITERARY ENVIRONMENT

# The place and role of the national education model in Ahmad Javad's creativity

***Kamal Jamalov***
Doctor of Pedagogical Sciences, Associate Professor. Nakhchivan Teacher's Institute. Azerbaijan. E-mail: kamal.camalov@gmail.com
https://orcid.org/0000-0003-1977-7250

**ABSTRACT**
In the article, the ideas of enlightenment in the work of Ahmad Javad, who is considered the harbinger of public education, have become the object of research and analysis. It is noted that the spirit of Azerbaijanism in Ahmad Javad's works strengthened his writing of patriotic poems. Ahmad Javad appeared in many democratic press pages to call the people to fight for the independence of the homeland, and correctly expressed his conclusions in his works. Ahmad Javad, a national and religious zealot of the Azerbaijani people, clarified the importance of educating young people, including teenagers, in the spirit of moral qualities with his creative style. He considered patriotism, national self-awareness, national dignity, respecting the language, religion, traditions, literature, and history of the people, preserving and developing it as a moral and spiritual quality. Ahmad Javad, who serves humanity and humanity, in the image of a working man he glorified with bright colors, considered it an honor for people to love each other as brothers.

**KEYWORDS**
Ahmad Javad, who is considered the harbinger of public education, enlightenment, homeland and patriotism, national self-awareness, national awakening

**ARTICLE HISTORY**
Received: 09.04.2023
Accepted: 20.05.2023

## Giriş / Introduction

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan ədəbiyyatının, həmçinin Azərbaycan məktəb və pedaqoji fikir tarixinin görkəmli nümayəndəsi, tanınmış maarifçi və ictimai-siyasi xadim, tərcüməçi, istiqlal şairi Əhməd Cavadın 130 illik yubileyinin keçirilməsi haqqında 20 aprel 2022-ci ildə Sərəncam imzalamışdır.

Azərbaycan məktəb və pedaqoji fikrin inkişafı tarixində öz yaradıcılıq orijinallığı ilə fərqlənən Əhməd Cavad "Axund oğlu", "Əlif Cim", "Dəli şair", "Ərdahan Cavad", "Gəncə-Cavad", "Cavad" və digər imzalarla mətbu orqanlarda çıxış etmişdir. Hər bir əsərində vətənə sevgisini, onun mədəni tərəqqisini təbliğ və tərənnüm edən şair, ömrünün 24 ilini bir pedaqoq kimi ictimai həyata həsr etmişdir. Onun əsərlərinin əsas ana xətti maarifpərvərlik olmuşdur. "Çalış qulluq elə bəşəriyyətə" – deyən Vətən aşiqi maarifi cəmiyyətin zülmdən qurtuluşuna səbəb olacaq bir amil kimi qiymətləndirir. Əlbəttə, o zamankı şəraitdə maarifçilik təşəbbüsünün mütərəqqi əhəmiyyətini inkar etmək olmaz.

Əhməd Cavad maarifi təbliğ etmək məqsədilə qələmə aldığı "Dilimiz", "İmdad", "Heyhat", "Şəhid əsir", "Oyan", "Uf, bu yol", "Kuropatkinə" və sair bu kimi onlarla şeir müəllifidir. Böyük şair yalnız xalqın siyasi və mənəvi düşməni sayılan hakimi-mütləqlərin əleyhinə çıxmaqla kifayətlənməmiş, onları gerilikdə saxlamağa çalışan yalançı din nümayəndələrinin, ruhanilərin də iç üzünü məharətlə açmışdır. XX əsrin əvvəllərində Azərbaycanda mövhumat, xurafat əleyhinə mübarizələrdə "Məsciddə meyxana", "Səllallah", "Utan", "At bu çadranı" və s. bu kimi şeirləri ilə Əhməd Cavad ön sırada gedən ziyalılardan sayılırdı:

Ey axund, ey pişivayi-əhli-iman, bir utan!
Əllərindən dad edir ehkami-Quran, bir utan!
Hansı dinin əhlisən sən, yolmudur göstərdiyin?
Ümməti məhv eyləyəndə varmı iman, bir utan!
Hansı "Quran"dır sənə öyrətdi şeytan sirrini?
İşlərinçün qaldı şeytanlar da heyran, bir utan!
Zati-napakında, yahu, hissi-rəhman yoxmudur?
Saymadın Allahı, ey Allaha düşman, bir utan!
Saldırıb sən ac köpəklər kimi tək qan içməkdən bütün
Əllərin qan, dişlərin qan, surətin qan, bir utan!.. [1, s.46]

Və ya

Öyləsi vardır ki: çıxır minbərə,
Yol-ərkan öyrədir peyğəmbərlərə.
Düşüncə əlinə fürsət bir kərə,
Qoymaz qalsın kişi, vari, səllallah! [2, s.18]

Əhməd Cavad maarifçilik ideyalarını “İqbal”, “Şəlalə”, “Füyuzat”, “Azərbaycan”, “Maarif və mədəniyyət”, “Açıq söz”, “Arı”, “Maarif işçisi” kimi qəzet, jurnallar vasitəsilə məqalə və publisist əsərlərində də təbliğ edirdi. Bu baxımdan, “Azərbaycan” qəzetində çap olunan “Denikin və Gəncə” (“Azərbaycan” qəzeti, 1919, 4 iyun), “Abbaszadə Mirzə Abbasın yubileyi” (“Azərbaycan” qəzeti, 1919, 2 iyun), “Yeni nəsil. İctimai yaralarımız” və s. məqalələri xüsusilə maraq doğurur.

Onun “Denikin və Gəncə” sərlövhəli məqaləsində həyəcan dolu notlar hər bir oxucunun diqqətini cəlb edir. Məqalədən oxuyuruq: “Denikin xəbəri Gəncədə dəhşətli bir sui-təsir buraxmışdır. Mürtəce general tərəfdarı və agentləri əhali arasında cürbəcür şayiələr buraxmaqdadırlar. Camaat həyəcan içindədir. İstiqlaliyyət və hürriyyət düşmənlərinin sərhədimizə yaxınlaşması əhalini qızışdırmışdır. Sadədil əhali, avropalılara, ikiüzlü siyasət yürütdükləri üçün şübhə bəsləyir. Ruh düşkünlüyü yoxdur. Kimdən sorsanız, heç biri fədakarlıqdan çəkinməyəcəgin böyük bir mətanət ilə söyləməkdədir. Hər kəs, Denikinin talan və yağmadan başqa bir şey gətirməyəcəyini söyləyir. Ciddi addımların atılacağı zamanı gəldiyini əhali kəndisi söyləyir. Rəsmi xəbərlərə baxmayıb, hər kəs “Bizi aldatmaq istəyirlər” – deyir”.

Əhməd Cavadın digər məqalələrinin dəyəri, hər şeydən əvvəl, həm də dünyəvi-təbiət elmlərini dini elmlərə qarşı qoymasındadır. O da digər maarifçilər kimi (F.Köçərli, S.M.Qənizadə, Ö.F.Nemanzadə, H.Cavid, H.Zeynallı, Y.V.Çəmənzəminli, T.Ş.Sümurq və d.) ümumi icbari təhsil məsələsini irəli sürmüş, hər iki cins nümayəndələrinin təhsil almalarını zəruri hesab etmişdir.

Vətən fədaisi Əhməd Cavadın yaradıcılığında, qeyd etdiyimiz kimi, vətənpərvərlik mövzusunda yazılmış şeirlər mühüm yer tutur. Onun “Azərbaycan”, “Azərbaycan dastanı”, “Şeirim”, “Dalğa”, “Göy göl”, “Dağlar”, “Əsir Azərbaycan”, “Ay ellər”, “Balalarıma”, “İngilis”, “Gəlmə”, “Çırpınırdın, Qara dəniz!”, “Ağlayırdım, gülürəm”, “Ey əsgər”, “Türk ordusuna” və s. şeirləri bu qəbildəndir. Şairin bu, və adlarını çəkə bilmədiyimiz digər şeirlərinin hər birində vətənin, xalqın azadlıq və istiqlaliyyəti, xoşbəxt gələcəyi uğrunda mübarizə leytmotiv kimi səslənir. Əhməd Cavad azadlığı mücərrəd deyil, şəxsiyyət, söz, fikir, mətbuat azadlığı kimi konkret şəkillərdə düşünürdü.

Şair-pedaqoq, eyni zamanda azadlığa "hümmət eylə"nməsinin qəbul edilməsini lazım bilirdi:

Şeiri sınıq bir türk sazı, ağladaraq tellərini,
Adaq-adaq gəzmək istər könlüm Turan ellərini!
Mən bir Turan yolçusuyam, əlimdə bir sönük məşal,
Aman, şeirim, hümmət eylə, aman, təbim, bir qanad çal!
Açın qəlbim qubarını, baxım nədir baş yazısı?
Əvvəl Allah göndərəndir, sonra Türkün bayatısı!.. [1, s.43]

Şairin "İqbal" qəzetinin 24 mart 1915-ci il tarixli sayında dərc edilən "Yas türküsü" adlı şeiri də ibrətamiz nümunədir:

Didilmiş bədənlər, yolunmuş saçlar,
Dağılmış yuvalar, görmək istəsən;
Qardan kəfən geymiş yoxsullar, aclar,
O ellərdə nə var, bilmək istəsən?
Sana bir kamançı hər şeyi söylər,
Mən bir kamançaçı, tellərim inlər!

– deyən şair ictimai bərabərsizliyə etiraz səsini ucaldır. Siyasi lirikanın ən gözəl nümunələrindən olan bu şeirdə ictimai ziddiyyətlərin real təsviri verilmişdir.

Əhməd Cavadın 14 avqust 1918-ci ildə "Gənclər yurdu" qəzetində üsyankar ruhlu "Marş" adlı şeirini çap etdirməsi maraqlı hadisə idi. Bu, onun dünyagörüşündəki sürətli inkişafı göstərirdi. Şeir bilavasitə inqilabi hadisələrin Əhməd Cavad yaradıcılığında əks-sədası idi.

Vətənpərvər şair istibdadın törətdiyi fəlakətləri göstərməklə kifayətlənməmiş, özünü mübarizəyə motivə edərək əsərlərində azadlığın, xoşbəxtliyin mübarizə ilə əldə ediləcəyinə inamını ifadə etmişdir:

Millətimin tarixinə
Şan-şöhrət əkməliyəm!
Bu qarşıda yad qalaya
Bir al bayraq dikməliyəm!

Düşmənlərə göstərdim ki,
Mənim kimi əsgəri yox.
Mənim qılınc vurmadığım,
Dünyanın heç biri yox!

Bayrağıma xain baxan
Xain gözə mən tikanam
Vurulursam kölgəsində
Halal olsun ona qanım! [1, s.49]

“Yarandın” adlı şeir Ə.Cavadın yaradıcılıq ideallarının başlıca istiqamətini tərənnüm edən xalq azadlığı və səadəti ideyasını əks etdirir. O, bu kimi başqa şeirlərində də yeni həyatın yalnız inqilab yolu ilə əldə edilə biləcəyi nəticəsinə gəlir. “Dalğa” adlı şeirində tutduğu yaradıcılıq yolunun inqilabi mahiyyətdə olduğunu söyləyir. Obrazlı təfəkkürün məhsulu olan “Al bayrağa” (1919) adlı şeirində vətəni gülşənə, onda fəryad edənləri bülbülə bənzədib, istibdadı inqilabla hədələyir, “Azərbaycan bayrağına” adlı şeirində isə artıq inqilab vaxtının çatdığını vurğulayır:

Gedərkən Turana, çıxdın qarşıma,
Kölgən dövlət quşu, qondu başıma!
İzn ver, gözümdə coşan yaşıma,
Dinlətsin dərdini aha, bayrağım! [2, s.106]

Əhməd Cavadın yaradıcılığında “inqilab” məfhumu bəzən mücərrəd mənada işlədilir: o, inqilabdan çox milli intibah, tərəqqi, mədəniləşmək səciyyəsi daşıyır.

Şair gələcəyə parlaq nəzərlə baxırdı. “Göy göl” adlı şeirində bu inam aydın şəkildə hiss olunur:

Sənin gözəlliyin gəlməz ki saya,
Qoynunda yer vardır yıldıza, aya,
Oldun sən onlara mehriban daya,
Fələk büsatını quralı, Göy göl! [1, s.100]

“Əhməd Cavad 1925-ci ildə “Göy göl” şeirinə görə “5-6 ay həbsdə” saxlanılsa da, bu şeiri dövrü üçün də, çağdaş dövrümüz üçün də böyük ictimai əhəmiyyətə malik əsər hesab etmək olar” [3, s.163]. Şeirdə nikbinliyə, fəaliyyətə doğru hərəkətverici bir ruh, insan gücünə, parlaq gələcəyə inam vardır ki, şairin iztirablarını yüngülləşdirən amillərdən biri də məhz elə budur.

Əhməd Cavad 24 dekabr 1911-ci il “Məktəb” jurnalının 3-cü sayında dərc etdirdiyi “Bir-birimizi sevəlim” adlı məqaləsində yenə də bir maarifçi kimi çıxış edir. Məqalədə yazılır: “Bütün insanlar bir-birinə möhtacdır. Bir-biriləri üçün çalışırlar; əkinçi min zəhmət ilə əkib-biçir, yediyimiz çörək onların zəhməti ilə əmələ gəlmişdir. Dərzilər bizim üçün paltar tikir, çəkməçilər çəkmə tikir, bənnalar evimizi

tikir, fəhlələr əllərinin zəhməti ilə bizə lazım olan işləri görürlər. Axır ki, hər kəs öz biliyi və bacarığı qədər öz işini təmiz etməyə çalışır. Çünki belə edənlər özlərinə xoşbaxtlıq qazanırlar. Yaxşı şeyə yaxşı da qiymət verilir. Belə şeyin sahibini tərif edirlər. Buna görə də bunlar daha artıq çalışırlar. Demək ki, biz bir-birimizin köməyinə möhtacıq. Bir-birimizə kömək etməz isək, yaşaya bilmərik.

Öylə isə bir-birimizi qardaş kimi sevəlim" ["Məktəb" jurnalı, 1911, №3].

Bir azadxah kimi çıxış edən şairin bu kimi fikir və görüşləri belə qənaətə gəlməyə əsas verir ki, onun azadlıq ideyaları, vətənin taleyi və həsrəti, insanların bir-birinə təmənnasız köməyi və sevgisi onu bir maarifçi-pedaqoq olaraq oxucunun yaddaşına həkk edir.

**Nəticə / Conclusion**

Vətən sevdalısı Əhməd Cavadın yaradıcılığındakı görüş və baxışlara yekun vurarkən belə nəticəyə gəlirik:

– Unudulmaz maarifçi Əhməd Cavad milli mənafe uğrunda mübarizədə Azərbaycan məktəb və pedaqoji fikir tarixinin inkişafına dəyərli töhfələr bəxş etmişdir;
– Vətən konsepsiyasında yeni ideyalar irəli sürərək Azərbaycan pedaqoji fikrini zənginləşdirmişdir;
– Nümunəvi şəxsi keyfiyyəti və parlaq yaradıcılığı ilə hər bir oxucunu mənəvi saflığa, yüksək amallara doğru fəaliyyətə səsləmişdir;
– Öz yaradıcılıq dəsti-xətti ilə gənclərin, o cümlədən yeniyetmələrin mənəvi keyfiyyətlər ruhunda tərbiyə edilməsinin əhəmiyyətini dəqiqləşdirmişdir;
– Təhsilin ümumi, məcburi və pulsuz olması, məzmununun milliləşdirilməsi və zənginləşdirilməsinin həlli yollarını mətbu orqanlarda əsaslandırmışdır;
– Pedaqoji fəaliyyəti ilə yanaşı, proqram və uşaqlar üçün "Sərf və nəhv" (Qrammatika) adlı dərslik yazmışdır;
– Milli oyanış, xalq hərəkatı, türk xalqlarının birliyinə çağırış yaradıcılığının leytmotivini təşkil etmişdir;
– "Vətən bir fidandır, enməz bayrağı" – deyən şair, xalqın ağır vəziyyətinə biganə qalmamışdır;
– Vətənpərvərlik, milli mənlik şüuru, milli ləyaqət, xalqın dilinə, dininə, adət-ənənələrinə, ədəbiyyatına, tarixinə hörmətlə yanaşmağı, onu qoruyub saxlamaq və inkişaf etdirməyi əxlaqi-mənəvi keyfiyyət hesab etmişdir;
– Parlaq boyalarla tərənnüm etdiyi əməkçi insan obrazında insanların bir-birini qardaş kimi sevməyini şərəf bilmişdir;

– Ölkənin himni səviyyəsində qəbul edilən və sevilən Əhməd Cavad milli tərbiyə problemlərini həll etməyə qabil böyük ziyalılar ordusu yetişdirmişdir.

**İstifadə edilmiş ədəbiyyat / References**

1. Cavad Ə. (2012). Sən olasan gülüstan. Bakı, "Təhsil" nəşriyyatı. 192 s.
2. Cavad Ə. (1991). Sən ağlama, mən ağlaram. Bakı, "Yazıçı" nəşriyyatı. 208 s.
3. Saləddin Ə. (1992). Əhməd Cavad. Bakı, "Gənclik" nəşriyyatı. 328 s.
4. Cavad Ə. (1911). Bir-birimizi sevəlim. "Məktəb" jurnalı, 24 dekabr, №3.
5. Cavad Ə. (1936). Məsud həyat. "Ədəbiyyat" qəzeti, 5 iyul.
6. Füzuli diridir. (1958). Əhməd Cavadın Məhəmməd Füzuli haqqında fikirlərindən. "Kommunist" qəzeti, 12 aprel.
7. Salmanlı R. (2011). Əhməd Cavadın yaradıcılıq yolu. Bakı, "Ozan" nəşriyyatı. 216 s.
8. Mahmud T. (1967). Şair Əhməd Cavad. "Azərbaycan" jurnalı. № 6, s.177-181.
9. Talıblı B. (1929). Şura yazıçıları Cavadın hərəkətini təqdir edir. Ədəbiyyat inqilaba xidmət edir. "Kommunist" qəzeti, 11 noyabr.
10. Rzalı R. (2002). Altunlar yurdudur bu kasıb ölkə. Azərbaycan himninin müəlliflərindən biri. "Azərbaycan" qəzeti, 28 may.
11. Mustafayeva G. (2006). Müstəqil Azərbaycan Respublikasının Əhməd Cavad yaradıcılığında rolu. "Ədalət" qəzeti, 10 mart.